*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh. 3-8*

# DİLÇİLİK

https://doi.org/10.62837/2025.4.3

**ÇİNGİZ QARAŞARLI**
***ADU***
***Filologiya elmləri doktoru, professor***

## İşğalçı kim idi? Türklər, yoxsa bizanslılar

**Xülasə**

Məqalədə Troyanın türk ölkəsi olduğuna dair VII-XV əsr Avropa tarixçilərinin verdikləri məlumatlarda tarixi gerçəkliyin əks olunması dil faktları əsasında sübut olunur: troyalıların daşıdıqları Priam, Alber, Askan, Dardan, Eney kimi onlarca qədim türk şəxs adları və Troya kökənli etrusklara aid yazıların qədim türk dillərində oxunması (3; 4) Avropa müəlliflərinin Troya haqqında yazdıqlarının gerçək olduğundan xəbər verir.

Gerçək budur ki, heç də türk sultanları «Bizans torpağını» deyil, məhz bizanslılar əski türk yurdu Troyanı işğal etmişdilər.

Tarixi keçmişdən xəbəri olan Fateh Sultan Mehmed İstanbulu azad edərkən, Troyanın intiqamını aldığını nahaq yerə dilə gətirməmişdi. Türk sultanları əzəldən türk yurdu olmuş Anadolunu işğal deyil, azad etmişdilər. İspaniyalı müəllif Pero Tafur 1437-ci ildə İstanbula gəldiyi zaman xalq arasında "türklə Troyanın intiqamını alacaqlar" fikrinin dolaşdığını qeyd edir (1, s.99).

1930-cu illərin ünlü dilçisi akademik N.Y.Marr əski çağlarda Aralıq dənizi sahillərində türklərin yunan və romalılardan çox əvvəllər yaşadığını, burada türkcənin yunan və latıncadan daha əvvəllər danışıldığını söylərkən (9, s.119), heç şübhəsiz troyalıları, etruskları və Yunanıstanın erkən sakinləri pelasqları nəzərdə tutmuşdur.

**Açar sözlər:** bizanslılar, türklər, Sultan Mehmed, Troya, Konstantinopol

Hazırda öz gerçək tarixlərini ya unutmuş, ya da bilərəkdən saxtalaşdıran yunanlıların bəşəriyyəti inandırmağa çalışdıqları mifə görə, Konstantinopol da, onun yerləşdiyi Anadolu da tarixən bizanslılara məxsus olmuş və bu əraziyə ilkin olaraq Osmanlı dönəmində gəlmiş türklər onların yurdlarını işğal etmişlər.

Anadolunun Bizans imperiyası tərkibinə daxil olmasından çox-çox əvvəllər bu bölgədə mövcud olmuş qüdrətli Troya və onun əhalisinin mənşəyi haqqında isə çağdaş avropalılar susurlar. Halbuki, bu ərazinin daha qədim sakinləri troyalıların türk olduqlarını VII-XIV əsrlərə aid Avropa yazarları açıqca qeyd edirlər. VII əsrə

aid Fredeqar Xronikasına görə, Türklər Troyanın istilasından sonra iskit torpaqlarında yerləşmişdilər (1, s.95).

Troyalıların türk olduqlarını XII-XIV əsr Avropa müəllifləri Nikole Gilles, Tireli Vilyam, Andrea Dandalo, Brakkiolini, İsidor, Feliks Fabri və digərləri yazırlar (1).

İstanbulu fəth edən Sultan Mehmed 1462-ci ildə Midillinin fəthi zamanı Çanakkaledə Troya xarabalıqlarının olduğu yerə gələrək, qəhrəmanların məzarlarını araşdırmışdı. Troya haqqında bütün yazılanlardan xəbərdar olan Fateh Sultan Mehmed Troya xarabalığındaykən başını aşağı əyərək demişdi: «Allah məni bu şəhərin və xalqının müttəfiqi olaraq bu zamanadək qoruyub saxladı. Biz bu şəhərin düşmənlərinə qalib gəldik. Yunanlıların biz asiyalılara qarşı etdikləri pis davranışların intiqamını aradan uzun zaman keçməsinə baxmayaraq, onların nəsillərindən aldıq» (1, s.103).

Sultan Mehmedin dediyindən göründüyü kimi, İstanbulun fəthini o, işğal deyil, qisas hesab etmiş, vaxtilə yunanlıların işğal etdikləri bu torpağı gec də olsa qurtardığını dilə gətirmişdi.

Troyalılarla türklərin eyni şəxs adlarını daşımaları da qədim Avropa mənbələrinin məlumatlarını təsdiq edir:

**Priam** troyalıları qədim türklərlə bağlayan ilginc bir şəxs adıdır. O, Troyanın sonuncu çarı olmuş və Troya onun çarlığı dövründə süquta uğramışdır.

**Priam** şəxs adına qədim türk (qazax) eposunda («Priyamın hekayəti») rast gəlirik. Burada **Priyam** Turan ölkəsinin qəhrəmanı, Əfrasiyab bahadırı kimi təsvir olunur (2, s.123).

Troya – türk onomastik paralelləri arasında çox sayda şəxs, tayfa, yer və mifoloji surətlərin adlarını aşkar edirik (3). Həmin adların türk variantları qədim türk dilində, eləcə də qədim türk adlarını qoruyub saxlamış qazax, qırğız, tatar, başqırd, çuvaş və Sibir türklərinin dillərində aşkar olunur:

**Alber.** Troyalı döyüşçüyə məxsus **Alber** şəxs adı qədim türk antroponimiyasındakı **Alper, Alp er, Alp ər** şəxs adının fonetik variantıdır. Türkoloq N.A.Baskakov **Alper** şəxs adının **alp** («igid», «qəhrəman») və **er** («ər», «bahadır») sözləri əsasında yarandığını yazır (6, s.136-137).

Əfsanəvi Turan ölkəsinin hökmdarı **Alp er Tonqa** eyni adı daşımışdır.

**Alp** qədim türk dilində bir neçə mürəkkəb şəxs adının da tərkibində işlənmişdir: **Alp Tarxan, Alp Teqin, Alp Turmuş**.

**Askan.** Homerin «İliada» poemasında troyalılardan biri bu adı daşıyır. Bu şəxs adının tam qarşılığına hunlarda və müasir altay türklərinin dilində rast gəlirik.

Türk dilləri əsasında bu şəxs adının aydın etimoloji yozumu vardır: çuvaşca **askan** sözü «şux», «dəcəl», «çoşğun», «azğın», «güclü» mənalarını ifadə edir.

**Paris.** Troya çarı Priamın oğlanlarından biri olmuş Paris xakas türklərinə aid **Paris** kişi adı ilə müqayisə edilə bilər. Bu şəxs adı başqa türk dillərindəki **Baris, Barıs, Barış, Bars** variantlarında işlənmiş kişi adının xakas variantıdır. *b>p* samit

əvəzlənməsinin geniş müşahidə edildiyi xakas dilində cingiltili **b** samiti ilə deyilən şəxs adına rast gəlinmir.

Adın etimologiyasına gəldikdə isə, o, türk dillərində igidlik, qüvvətlilik rəmzi olmuş **bars/baris** ("pələng") sözündən olub, qədim türklərə aid **Bars beg, Barskan, Bars buğa, Barsğan** və digər şəxs adlarında da özünü göstərir.

Araşdırılan şəxs adının xakas variantı (**Paris**) ***bars*** sözünün kar samitlə (**p**) deyilən aşağıdakı variantlarına uyğun gəlir: **pars** (qaraqalpaq), **parıs** (altay) və b.

**Atas.** Troya çarı Priamın digər oğlunun daşıdığı bu ad qazaxlara məxsus **Atas** kişi adı ilə səsləşir. Bu ad türk dillərindəki **"ata"** və bənzərlik bildirən qeyri-məhsuldar **s** şəkilçisindən ibarət olub, müasir başqırd dilindəki **atas** ("ataya oxşar") sözündə də müşahidə olunur.

**Dolon.** Troyalılara məxsus bu şəxs adı qırğızların işlətdiyi **Dolon**, qazax dilindəki **Dolan** kişi adları ilə eyni səslənir. Qırğız şəcərələrində **Dolon** bu xalqın əcdadı kimi təsvir olunur.

**Aytilla**. Apollodora görə, Troya çarı Priamın bacısının adı **Aytilla** imiş. Qırğızlara məxsus **Aytilla** şəxs adı eyni mənşəlidir.

**Kapaney.** Troyalının daşıdığı bu şəxs adının əsasını qədim türk **Kapan** şəxs adı təşkil edir. **-ey** isə türk şəxs adlarında geniş istifadə edilən **-ey/-ay** şəkilçisidir.

N.A.Baskakov **Kapan** şəxs adının «qəhrəman», «cəngavər» mənalarında olduğunu göstərir (6, s.54).

**Batiya.** Antik qaynaqlarda **Batiya** Troyanın ilk çarı Tevkrin qızı, Dardanın arvadı hesab edilir. Eyni qədim şəxs adı – **Bətiya** müasir qazaxların antroponimiyasında işlənməkdədir.

**Tarna.** Troya vilayətlərindən biri **Tarna** adlanırdı. X əsrin əvvəlinə aid Bizans, ərəb və yəhudi tarixçilərinin əsərlərində **tarna** adlı xəzər tayfasından bəhs olunur. Xəzər xaqanı İosifin məktubunda (X əsr) **Tarna** xəzərlərə qohum olan **Bulqar, Oğuz, Bizal** və s. tayfalar arasında yer alır (7, s.74).

**Qarqar.** Troyadakı İda dağının bir zirvəsi **Qarqar** adlanırdı; Homerin "İliada" poemasında Troyada Zevsin vətəni sayılan **Qarqara** adlı vilayətdən bəhs olunur.

Troya yaxınlığında **Qarqar** adlı şəhərin də olduğu haqqında məlumat vardır.

Məlum olduğu kimi, **qarqar (karkar)** məhz türk xalqlarının onomastikasında çox geniş yayılmışdır. Ona dağ və çay adı kimi Azərbaycan və Qazaxıstanda, vilayət adı kimi Orta Asiyada (qədim kimaklara məxsus **Qarqarxan** vilayəti), etnonim kimi Qafqaz Albaniyasında (**qarqarlar**) və Türkmənistanda (ersarı tayfasına məxsus **qarqar** nəsli), şəxs adı kimi «Manas» dastanında (**Karkar**) rast gəlinir.

Strabon tərəfindən Anadolunun şərqində yerləşdirilən **qarqar** etnoniminin də eyni etnosa, yəni türklərə aidiyyəti heç bir şübhə doğurmur. Buna əsas verən həm də odur ki, tarixçi qarqarları Anadolunun şərqində mövcud olmuş **Themiskir** adlı düzənlik ilə bağlayır. Onun yazdığına əsasən, qarqarlar Meotida (Azov dənizi) sahillərinə **Themiskir** adlanan yerdən gəlmiş və orada traklarla birlikdə

amazonkalara qarşı vuruşmuşlar (5, s.22).

Antik ədəbiyyatda «məhsuldar torpaq» mənasında işlədilən **terramar** (italyanca «yağlı torpaq») ifadəsi işığında **Themiskir** toponiminin qədim türkcə olduğunu şəffaf şəkildə görmək olur: qədim türk, uyğur. **semiz** «yağlı», qədim türk. **kıra,** türk. **kır** «düzənlik», «çöl», «tarla».

Troya – türk etnik qohumluğunun izlərinə mifologiyada da rast gəlinir.

**Bayana**. Qeyri-yunan mənşəli tanrılardan biri olan Afroditanın Troyadakı epiteti **Bayana** kimi səslənirdi.

Troyalıların **Bayana** adlandırdığı ilahə türk xalqlarının mifologiyasında himayəçi qadın tanrısı **Bayana** surətidir (9, s.178).

**Bayana** türk dillərindəki ***bay*** («himayəçi», «böyük», «müqəddəs») və **ana** («ana», «qadın») sözlərindən əmələ gəlir. Qədim türklər **Bayanaya** «tayfanın qadın himayəçisi», «ulu anası» kimi tapınmışlar.

Təqdim ediyimiz dil faktları isə troyalıların onomastikasındakı türkizmlərin sadəcə bir qismidir (3; 4).

## Nəticə

Araşdırma bu qənaətə gəlməyə əsas verir ki, Bizans imperiyasının bir zamanlar işğal altında saxladığı Anadolu ərazisində daha qədim çağlarda əfsanəvi Troya mövcud idi. Troyalıların qədim Avropa müəllifləri (VII-XIII) tərəfindən Türk mənşəli sayılması isə avropalıların yüz illər ərzində «Asiyalı türklərin» Anadolunu işğal etmələrinə dair formalaşdırdıqları təsəvvürlərin qeyri-elmi və uydurma olduğunu üzə çıxarır.

Bu uydurmanı ifşa edən mühüm bir dəlil isə troyalıların daşıdıqları qədim türk adları, eləcə də onların onomastikasındakı digər qədim türk elementləridir.

Troyalıların türk olduqlarına dair onlarca qədim Avropa yazarlarının məlumatları, eləcə də troyalılarla türklərin ümumi şəxs və tayfa adları hələ Bizans işğalından çox-çox öncə Anadoluda türk mənşəli xalqın yaşadığına sübutdur. Bu isə Anadolu ərazisində **türklərin deyil, məhz bizanslıların işğalçı olduqlarını** açıqca göstərir.

## İstifadə edilmiş ədəbiyyat

1. Afyoncu E. Truva’nın İntikamı. Yeditepe, İstanbul, 2011, 166 s.

2. Коныратбаев Э. Казак эпосы жяне тюркология. Алматы: Гылым, 1987, 365 с.

3. Qaraşarlı Ç. Truvalılar ve Etrüskler Türk idiler. Konya: Kömen yayınları, 2015, 166 s.

4. Qaraşarlı Ç. Troyalılar Türk idilər. Bakı: Elm və Təhsil, 2013, 126 s.

5. Алиев К. Античные источники по истории Азербайджана. Баку: Элм, 1986, 131 с.

6. Баскаков Н.А. Тюркская лексика в «Слове о полку Игорове», Москва: Наука, 1985, 207 с.

7. Коковцев П.К. Еврейско-хазарская переписка в X веке. Ленинград, АН СССР, 1932, 135 с.

8. Самойлович А.Н. Тюркология и новое учение о языке, XLV Академику Н.Я.Марру. М., -Л.: АН СССР, 1935.

9. Суперанская А.В. Имя через века и страны. М.: Наука, 1976, 192 с.

***Ч.М.Гарашарлы***

**Кто был окупант: тюрки или византийцы**

**Резюме**

Греки, или в связи с забвением об их истинном историческом прошлом, или же с намерением фальсификации истинную историю, считают Анатолию с включением Константинополя, своим родным территорием. Однако им не желательно запоминать, что когда-то эти земли принадлежали троянцам до образования Византийской империи. Наверняка это связано с сообщениями древнеевропейских авторов и источников, считающих троянцев тюрками по происхождению.

Правдивости этих сообщений оправдывают множество факторов, в том числе, древнетюркские имена которые носили троянцы.

Даже Султан Мехмед после его победы над византийцами посетил руины Трои, проклоняя голову сказал, что он отомстил грекам за зло, те которые принесли родным троянцам, хотя долгое время прошло от того времени.

Слова Султана служит доказательством, того что он был хорошо осведомлен об этническом происхождении троянцев. Эта этническая реалия была известна историкам того времени.

**Ключевые слова:** византийцы, тюрки, Султан Мехмед, Троя, Константинопол.

***Ch.M.Garasharly***

**Who were the occupant: Turks or Bysantians**

The Greeks, who have either forgotten their real history, or simply falsify it, allege Anatolia together with Istanbul to have been occupied by the Ottomans. However they avoid mentioning the historical fact that this territory once belonged to Troy, whose population by the European authors of the $7^{th}$-$13^{th}$ centuries are presented as Turks by origin.

The truthfulness of this information is proved by the Turkic layer of the Trojan onomasticon in which most personal names are Old Turkic by origin.

During Sultan Mehmed's visit to the ruins of Troy he said although long time had passed from the time the Greeks had inflicted the Trojans great sufferings, he revenged the Greeks for all they had committed. İt shows that Sultan Mehmed had got information about the past of the land he had conquered.

**Key words:** Bysantians, Turks, Sultan Mehmed, Troy, Istanbul.

**Rəyçi: filologiya elmləri doktoru Fəridə Allahverdiyeva**